ŞƏFFAFLIQ
AZƏRBAYCAN

Organization for Security and Co-operation in Europe
office in Baku

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

***MƏTBUAT ÜÇÜN MƏLUMAT***

# Orta məktəb müəllimləri heyəti üçün antikorrupsiya treninqləri keçirilib



**20 Aprel** – "Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin Quba və Şəki mərkəzləri həyata keçirdikləri "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində mobil treninqlər keçirməkdə davam edir. Belə ki, bu ayın ikinci dekadasında Şəki rayonun Baş Layısqı, Qumux, Şin və Cunud kəndlərində və Xaçmaz rayonun Sayad kəndində ümumilikdə 99 nəfər müəllim heyəti üçün keçirilmiş treninqlər zamanı nəzərlərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında məlumat verilib və həyata keçirilən layihənin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb. Maarifləndirmə xarakteri daşıyan təlim zamanı iştirakçılara yerində pulsuz hüquqi yardım göstərilib. Keçirilmiş təlimlərdə iştirakçılar daha çox Dövlət Yol Polisi, Təhsil, Hərbi Komissarlıq, İcra Hakimiyyəti, VVAQ, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, Sosial Müdafiə Fondu, Bələdiyyə və Notariatla bağlı şikayətlər səsləndirmişdilər.

*2005-ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz.*